**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvlərinin təyin edilməsi və “Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvlərinin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 1983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi haqqında Nizamnamə”nin 4.4-cü bəndinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilsin:

**dövlət orqanlarından**

| | |
|---|---|
| Quliyev Vüsal İlham oğlu | – Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Qeyri-hökumət təşkilatları ilə iş sektorunun böyük məsləhətçisi |
| Məmmədov İlqar Kamil oğlu | – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinin rəisi |
| Hacıyev Zakir Yusif oğlu | – Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Təhsil, elm, mədəniyyət, gənclər və idman sahələrinin maliyyəsi şöbəsi müdirinin müavini |

**qeyri-hökumət təşkilatlarından**

| | |
|---|---|
| Allahverənov Azər Kərim oğlu | – “Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İctimai Birliyinin sədri |
| Həsənov Əvəz Yediyar oğlu | – “Humanitar Tədqiqatlar” İctimai Birliyinin sədri |
| İsgəndərov İsrayıl İsa oğlu | – “Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyinin sədri |
| İbrahimov Zaur İbrahim oğlu | – “Prioritet” Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri |
| Quliyev Azay Əjdər oğlu | – “Beynəlxalq Əməkdaşlıq Mərkəzi” İctimai Birliyinin sədri |
| Mehdiyev Nurəddin Səftər oğlu | – “Virtual Qarabağ” İnformasiya Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin sədri |
| Orucov İlqar Nəcibəddin oğlu | – “Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti” İctimai Birliyinin sədri |
| Səfərova Günel Məhərrəm qızı | – “Vətəndaş” Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri. |

2. “Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvlərinin təyin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 1983 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 4, maddə 739) 1-ci hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 aprel 2021-ci il
2609